# Narkomaniyaya qarşı mübarizə: Milli təhlükəsizlik və gəncliyin gələcəyi naminə

Müasir dünyanın əsas problemlərindən biri hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq qlobal xarakter alaraq bəşəriyyətin bu günü və gələcəyi üçün böyük təhlükə yaradır. Bu baxımdan, dünya dövlətləri də yə biləcək zərərlərin minimuma endirilməsi məqsədilə narkomanlığa qarşı mübarizə üsullarını və müalicəsi metodlarını daha da təkmilləşdirir və beynəlxalq səviyyədə qarşılıqlı əməkdaşlıq imkanlarını artırırlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin praqmatik siyasəti, sistemli və ardıcıl yanaşmanı təmin edən məqsədyönlü, konkret nəticəyə hesablanmış qərarları, sosial-iqtisadi və hüquqi islahatları nəticəsində Azərbaycan qüdrətli bir dövlətə çevirilmişdir.Dövlətimizin yürütdüyü çoxşaxəli siyasətdə insan amili, onun sağlamlığı və rifahı da mühüm yer tutur.

Milli maraqları nəzərə alınmaqla zamanın hər bir çağırışına adekvat cavab verərək narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirakı daha intensiv və səmərəli xarakter almış, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində institusional və əməli praktiki tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə nəzarət etmək və onların qanunsuz istifadəsinin qarşısını almaq məqsədilə güclü hüquqi baza formalaşdırılmışdır. "Narkotik vasitələr və psixotrop maddələr haqqında" Azərbaycan Respublikasının Qanunu, Cinayət Məcəlləsinin müvafiq maddələri, habelə Nazirlər Kabinetinin qəbul etdiyi normativ-hüquqi aktlar bu sahədə əsas hüquqi tənzimləyici sənədlərdir. Bu sənədlər narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı sərt cəza tədbirləri nəzərdə tutur.

Narkotik asılılığına düçar olan şəxslərin cəmiyyətə reinteqrasiyası və sağlam həyata dönüşü də narkomaniya ilə mübarizənin mühüm tərkib hissəsidir. Azərbaycanda bir neçə reabilitasiya mərkəzi fəaliyyət göstərir ki, burada psixoloji yardım, tibbi dəstək və sosial uyğunlaşdırma xidmətləri göstərilir. Dövlət bu istiqamətdə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı genişləndirir, beynəlxalq təcrübəyə əsaslanan proqramların tətbiqini təşviq edir. Əsas məqsəd narkotik aludəçiliyindən əziyyət çəkən insanları cəmiyyətə qaytarmaq, onların faydalı və məhsuldar həyat yaşamalarına şərait yaratmaqdır.

Azərbaycan Respublikası narkotik vasitələrin dövriyyəsi ilə mübarizədə beynəlxalq səviyyədə də aktiv fəaliyyət göstərir. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC, INTERPOL,) Avropa Şurası və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində birgə layihələr və əməliyyatlar həyata keçirilir. Bu əməkdaşlıq həm regional təhlükəsizliyin təmin olunması, həm də ölkədaxili fəaliyyətlərin qlobal standartlara uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Regional informasiya mübadiləsi və sərhədlərarası əməliyyatlar vasitəsilə transsərhəd narkotik şəbəkələrinin zərərsizləşdirilməsi mümkün olur.

Narkomaniyaya qarşı mübarizə çoxşaxəli və davamlı yanaşma tələb edən bir prosesdir. Hüquqi, inzibati və maarifləndirici tədbirlərlə yanaşı, ictimai şüurun formalaşdırılması, ailə institutunun gücləndirilməsi və gənclərin düzgün yönləndirilməsi bu mübarizədə həlledici rol oynayır. Narkomaniyaya qarşı təbliğata çox erkən yaşlardan, həyatı, insanlığı, ananı, vətəni sevməyi öyrətməklə başlanılmalıdır. Elə bu səbəbdən də maarifləndirici tədbirlər və sosioloji sorğular ilk öncə məktəbyaşlı uşaqlar, yeniyetmələr arasında aparılmalıdır. Uşaq və gənclər arasında narkomaniyaya qarşı mübarizə tədbirləri haqqında geniş maarifləndirmə aksiyalarının aparılmasına ehtiyac vardır. Cəmiyyətin hər bir üzvü bu məsələyə biganə qalmamalı, narkotik bəlasının qarşısının alınmasında öz töhfəsini verməlidir. Sağlam gələcək üçün bu gün göstərilən səylər sabahın rifah və sabitliyinin təminatıdır.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**II dərəceli hüquqşünas.**

## Onlar Vətən uğrunda vuruşmuşlar

# Kölgəsi yox günəşin...

**Hər kəs mübarizə əzmində**

Həyat ta qədimdən mübarizələrlə dolu olmuşdur. Yaşam mücadiləsi edən canlılar arasında həmişə münaqişələr olmuşdur. İnsanlar isə şüurlu şəkildə həyatda çox zaman münaqişələr yaratmışlar. Bəzən hərislik, paxıllıq iddiaları ciddi şəkildə davam edərək müharibələrə çevrilmişlər. Bu müharibələr isə həmişə insan tələfatı, dağıntılarla nəticələnmişdir.

90-cı illərdə 1-ci Qarabağ müharibəsi zamanı torpaqlarımızın 20 faizinin işğal altında qalmasının acısını xalq 30 il çəkdi. Xalqın hər bir övladı bu məğlubiyyətin aradan qaldırılması üçün özünü daxilən döyüşə hazırlayırdı.

Ölkəmizin prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2020-ci il sentyabrın 27-də başladığı Vətən müharibəsi - Qisas müharibəsinə vətənpərvər insanlar, ələlxüsus gənclər daha ürəklə qoşuldular.

**İsmayılı tanıyırsınızmı?**

Könüllü olaraq döyüşə gedənlər arasında Qəbələnin Tüntül kəndindən olan, iki körpə atası İsmayıl Abbas oğlu Kərimov da var idi. İsmayıl hələ körpəlikdən vətənpərvərliyi və mənəvi zənginliyi ilə seçilirdi

İsmayıl Kərimov 1990-cı ildə, noyabrın 3-də Tüntül kəndində doğulmuşdu. Ailədə 4-cü uşaq idi. O hələ bir yaşında olanda anası Xavər xanım ağır xəstələnir. İllərlə onun müalicəsinə diqqət kəsilən ailədə bacısı və atasından xüsusi qayğı görərək həyatını yaşayan İsmayıl 5 yaşından sonra anasını itirir. Bu acısını körpə qəlbinə gömən İsmayıl ailəsinə, elinə-obasına bağlı bir gənc kimi böyüyür.

Ancaq həyatda nə yaxşı ki, insan kimi insan olanlar da yaşayır. 23 yaşlı Raifə xanım dörd övlada ana olduqda İsmayılın 5 yaşı var idi. Bioloji ana olmasa da o, anasız övladlara ana qayğısı göstərməyə çalışır, xüsusilə balaca İsmayılın körpə qəlbinə daha yaxın olmaq istəyirdi. İsmayıl həyat dolu bir gənc idi. Böyük qardaşları Zaur, Xəyyam, bacısı Aynur həmişə ona ərköyün bir uşaq kimi baxsalar da, o, düşüncə tərzi ilə fərqlənirdi. Balaca qardaşı Anar ona həm də uşaqlıq dostu kimi idi. Raifə xanım İsmayıla xüsusilə böyük sevgi ilə yanaşırdı və ona gö-




rə də İsmayılda ona qarşı bir doğmalıq hissi vardı - ondan ana qayğısı hiss edə-edə böyüyürdü...

İsmayıl Nohurqışlaq kənd məktəbi onlara yaxın olduğu üçün bu məktəbdə orta təhsil almışdı. 2009-cu ilin qışında İsmayıl həqiqi hərbi xidmətə çağırılmışdı. O, Murovdağ yüksəkliyində minaatan batalyonunda xidmət etmiş, 2010-cu ildə xidmətini başa vuraraq doğulduğu kəndə qayıtmışdı. Bir müddət kənddə qaldıqdan sonra o, işləmək üçün Bakıya gəlir. Hələ orta məktəbdə oxuduğu illərdən bacısı Aynurun həyat yoldaşı Rəfaelə həmişə qibtə hissi ilə baxar, onun geyimi, işi ona daha maraqlı gələrdi. Hərbçi olmaq arzusu olsa da, bu arzudan kənarda qalmışdı. Ancaq "Vətən ona oğul deyən zaman" o, təkrar hərbi formasını geyindi və qəlbindəki həlli vacib arzusunu gerçəkləşdirmək - "qəlbinin tufanını" ram etmək üçün döyüşlərə yollandı...

İsmayıl əsgəri xidmətdən sonra bir müddət mebel sexində işləmişdi. Daha sonra isə, son iki il idi ki, Bakıda "28 may" metrosuna yaxın, "Məhəmməd" studiyasında bərbər işləmişdi.

2014-cü ildə əslən bakılı olan Pərzad adlı bir qızla - sevdiyi xanımla ailə qurmuşdu. Ailədə iki oğul övladı dünyaya gəlmişdi. Övladının birinə atasının adını verən İsmayıl ikinci oğluna Əli adı vermişdi. Ailəsinə bağlı bir gənc idi İsmayıl. Ta uşaqlıqdan belə idi. Bu, ailəsinin, qohumlarının söz-söhbətindən, həyatın hər anını əks etdirən şəkillərdən - albomlardan daha aydın hiss olunurdu.

**Kölgəsi yox günəşin...**

Ancaq Vətəni hər şeydən üstün tutan vətənpərvər oğul öz arzusu ilə döyüşlərə yollandı... Düşündü ki, Məmməd Araz şerində deyildiyi kimi:

***Kolgəsi yox günəşin,***
***Bəlkə elə kölgə mən.***
***Nəsimi harayından,***
***Əks-səda bəlkə mən...***

**Yerim yoxsa bu yerdə...**

İsmayıl həyatda öz əməlləri ilə iz salmaq arzusunda olan bir gənc olub. Əgər Vətən torpaqlarında yaşayırsa insan, onun fikrincə, mütləq burada öz yerini, məsuliyyətini hiss etməli! Yoxsa nə ümmanda damla ola bilməz, nə damlalarla ümman yarada bilməz.

***Yerim yoxsa bu yerdə,***
***Yer hədiyyə ummaram.***
***Nə ümmanda damlayam,***
***Nə damlada ümmanam...***

Torpaqlarımızın azadlığı uğrunda mərdliklə döyüşən İsmayıl 21.09.2020-ci ildə cəbhə bölgəsinə getmişdi. Oktyabrın 5-də Tərtər uğrunda gedən döyüşlərdə İsmayıl şəhadətə qovuşdu. 6 oktyabrda Tüntül kənd qəbiristanlığında dəfn olundu. Ölümündən sonra o, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" , "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

İsmayıl öz yerini xalqın qan yaddaşında tutdu, ürəklərdə məskən saldı, əbədiyyə qovuşdu.

**Ümmanlıq dünyasında**

Şəhidlik dünyası ümmanlıq, həddi-hüdudu olmayan dünya! Çünki həyat varsa, mübarizə də var. Mübarizə varsa, tarix də təzələnir... Hər bir ana və vətənpərvər insan kimi müharibəsiz dünya arzusundayam! İsmayılımız da o ümmanın bir damlası...

Onun yarım qalan arzularını ata-anası, bacı-qardaşları, ömürgün yoldaşı Pərzad xanım və iki oğul balası həyata keçirir. Xatirəsi əbədiləşdirilir... Ən ümdəsi Pərzad xanım övladlarını İsmayılın təbirincə tərbiyə edərək böyüdür. İsmayılın isə ruhu şad olsun! Məkanı isə cənnət!

**BİBİXANIM.**

# Heç kəs unudulmur

***Azərbaycan əsgəri 44 günlük haqq savaşını Böyük Qələbə ilə tamamladı və bu tarix qəhrəmanlıq salnaməsi oldu. Ordumuzun şəxsi heyəti polad iradəsi, yüksək döyüş ruhu ilə qazandığı Zəfər nəticəsində təkcə regiona deyil, dünyaya vətənpərvərlik nümunəsini nümayiş etdirdi. Bu savaşda iştirak edən hərbi qulluqçularımızın hər birinin xatirələri fərqli olsa da, amalları bir idi - Vətən torpaqlarını işğaldan və işğalçılardan təmizləmək. Güc, iradə, cəsarət və Vətən sevgisindən yaranan ruh yüksəkliyi Böyük Qələbənin təmin olunmasında əsas faktorlardan biri oldu. Xalqımızın qəlbində qubara çevrilən doğma yurd həsrətinə bu gün artıq son qoyulub. Qarış-qarış azad olunan tarixi ərazilərimizi öz qanı, canı və alın təri ilə Vətən torpağına birləşdirən oğullarımızın hər biri qədirbilən xalqımızın ürəyində daim yaşayır və bundan sonra da yaşayacaq. Bu gün xalq öz ordusuna güvənir və inanır, ordu isə ona olan inamı layiqincə doğruldur. Bir zamanlar mənfur düşmən tərəfindən darmadağın olunmuş ərazilərimizdə mühüm işlər görülür.***

***Vətən uğrunda döyüşənlər, şəhadətə qovuşanlar isə əbədi olaraq bahar ömürləri ilə yaddaşlarda yaşayırlar.***

# Əbədiyaşar gənc



Novruz Niftalıyev 2004-cü ildə rayonumuzun Nohurqışlaq kəndində Eldəniz Mustafayevin ailəsində anadan olmuşdur. 2010 - 2021-ci illərdə orta təhsil almışdır. Orta təhsil aldığı dövrdə - 2013-cü ildə "Qəbələ" İdman Klubunun cüdo bölməsinin üzvü olaraq fəaliyyət göstərmişdir. 2018-ci ilə kimi üzvü olduğu klubun tərkibində dəfələrlə müxtəlif turnirlərin qalibi və mükafatçısı olmuşdur.

O, 2022-ci ilin aprel ayında həqiqi hərbi xidmətə başlamışdır. Novruz 2023-cü il aprelin 2-də Tərtər rayonunun Talış kəndində hərbi xidmət dövründə erməni hərbi birləşmələrinin basdırdığı minaya düşmüşdür.

Qəbələ rayonunun Nohurqışlaq kəndində dəfn olunmuşdur.

Şəhidimiz hər bir vətənpərvər insanın qan yaddaşında əbədi yaşayır.

# Təvəllüdü və ömrü bahar



Baharda doğulmuşdu Tural. Elə bahar kimi də dumanlı, çiskinli bir ömür sürmüşdü. Arzuları bir-bir çiliklənən Vətən oğlu! Ana dünyası, gözəl bir ailəsi, ürəyincə olan bir iş yeri olması onun ən ümdə arzularından biri idi. Vətəninin, torpaqlarının bütövlüyü, azadlığı da ən başlıca arzusu idi. Ana itkisi onu silkələdi, qəm dumanına qərq oldu... Ancaq Vətənini azad görmək istəyilə 2020-ci ilin sentyabrında ordu sıralarına təkrar, könüllü getdi.

Tural Cəlilov 1996-cı il aprelin 10-da rayonumuzun Yeni Dizaxlı kəndində doğulmuşdur. Orta təhsilli idi. Quru qoşunlarının əsgəri olan Tural Callad oğlu Cəlilov 2020-ci ilin sentyabrında könüllü olaraq Vətən Müharibəsinə getmiş, ağır döyüşlərin iştirakçısı olmuşdur. O, oktyabrın 7-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Aprelin 10-u onun mövlududur. Yeni tarix yazan Turalın adı tarixin qan yaddaşına əbədi həkk olunub.

Məkanın cənnət olsun, şəhidim!

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**